

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 236 (23.398)

14 dekabr 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Ölkə başçısı İqor Babuşkinin Həştərxan vilayətinin qubernatoru təyin ediləndən az sonra Azərbaycana gəlməsini tərəfdaşlığın, dostluğun əlaməti kimi dəyərləndirib, Rusiya regionları arasında Həştərxan vilayəti ilə Azərbaycanın xüsusi münasibətlərini, bunun müştərək layihələrə əsaslandığını vurğulayıb.

Rusiyanın Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin şəxsən görüşmək imkanına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

* * *

Prezident İlham Əliyev həmin gün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan ilk neft tankerinin istismara verilməsi və "Azərbaycan" adlı gəmi-bərənin suya salınması mərasimində iştirak edib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına tanker barədə məlumat verib.

## İnformasiya və rabitə sahəsinin inkişafı təmin edilib



*Muxtar respublikada iqtisadi və sosial həyatın bütün sahələrində müasir texnologiyalardan səmərəli istifadə ümumi inkişafı sürətləndirmiş, informasiya cəmiyyətinin formalaşmasına yeni stimul yaratmışdır.*

Son dövrlərdə muxtar respublikada mobil rabitə operatorlarının fəaliyyətinin təşkili, mövcud koordinattipli avtomat telefon stansiyaların elektrontipli avtomat telefon stansiyaları ilə əvəz edilməsi, fiber-optik kabel xətlərinin çəkilişi, 4G və "Naxtel" simsiz telefon xidmətinin istifadəyə verilməsi, Naxçıvan Dövlət Televiziya və Radiosunun internet üzərindən yayımlanması, "Universitet" televiziyasında videodərslərin hazırlanması və distant tədrisin tətbiqi məqsədilə avadanlıqların quraşdırılması, iqtisadiyyatın bütün sahələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin uğurla davam etdirilməsi bu sahənin sürətli inkişafına təkan vermişdir.

Muxtar respublikada elektron hökumətin formalaşdırılması sahəsində də ardıcıl tədbirlər görülmüş, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemləri yaradılmış, dövlət orqanlarına, vətəndaşlara və sahibkarlıq subyektlərinə elektron imzaların verilməsinə başlanılmışdır. Bundan əlavə, "Evədək optika" layihəsi üzrə görülən işlər də telekommunikasiya sahəsində yeniliklərin əldə olunmasına şərait yaratmışdır.

Muxtar respublikanın telekommunikasiya sisteminin yenilənməsi istiqamətində Naxçıvan şəhərini, Şərur, Babək, Ordubad, Şahbuz və Sədərək rayonlarını əhatə edən yeni nəsil telekommunikasiya xidmətlərindən istifadəni təmin edən 4-cü nəsil avtomat telefon sistemləri istifadəyə verilmişdir.

İnformasiya-texnologiyaları sahəsinin inkişafı məqsədilə təkcə 2010-cu ildən 1 yanvar 2019-cu il tarixədək muxtar respublikada informasiya və rabitə sahəsinin inkişafına, ümumilikdə, 70 milyon 254 min 800 manat vəsaitin yönəldilməsi bu sahədə görülən işlərin əhatəliyini xarakterizə edən mühüm bir göstəricidir.

2018-ci ilin sonuna muxtar respublikada avtomat telefon stansiyalarının ümumi tutumu 100 min nömrəni ötmüş, əsas telefon aparatlarının sayı isə 72 min nömrə təşkil etmişdir.

Əhalinin maddi rifah halının yaxşılaşmasının və informasiya texnologiyaları sahəsində yaradılmış şəraitin nəticəsidir ki, 2018-ci ilin sonuna muxtar respublikanın ev təsərrüfatlarında, müəssisə və təşkilatlarında 130,2 min kompüter mövcud olmuşdur ki, bu da 1 yanvar 2010-cu il tarixə olan göstəricidən 1,5 dəfə çoxdur.

Cari ilin ötən dövründə də bu sahənin inkişafı diqqətdə saxlanılmış, informasiya və rabitə sahəsinin inkişafına 2 milyon 969 min 600 manat vəsait yönəldilmiş, 97600 metr fiber-optik, 142996 metr fiziki kabel xətlərinin çəkilişi işləri həyata keçirilmişdir. Hazırda muxtar respublikada fiber-optik kabel xətlərinin ümumi uzunluğu 1600 kilometrə yaxındır.

Muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı bu sahə üzrə göstərilən xidmətlərin dəyərinin artımına da zəmin yaratmışdır. 2019-cu ilin yanvar-oktyabr aylarında muxtar respublikada informasiya və rabitə xidmətlərinin dəyəri 45 milyon 313 min 100 manat olmuşdur. Bu da 2010-cu ilin müvafiq dövründəki göstəricidən 1,5 dəfə çoxdur.

*Yanvar-oktyabr ayları üzrə informasiya və rabitə xidmətlərinin dəyəri, min manat*




Cari ilin ötən dövründə yeni nəsil texnologiyaların tətbiqi istiqamətində Culfa rayonunda 4-cü nəsil telekommunikasiya sistemləri qurulmuşdur. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq hazırda muxtar respublikanın telekommunikasiya sisteminin 94 faizini Yeni Nəsil (NGN) texnologiyasına əsaslanan 4-cü nəsil telekommunikasiya sistemləri təşkil edir.

İnfrastruktur quruculuğu tədbirləri çərçivəsində Ordubad rayonunun Dəstə, Şərur rayonunun Kərimbəyli, Muğanlı və Alışar, Babək rayonunun Kültəpə və Gülşənabad, Şahbuz rayonunun Türkeş kəndlərində yaradılan kənd mərkəzlərində və




Şərur rayonunun Yeni Havuş və Xətai kəndlərini əhatə edən kənd mərkəzində yeni rabitə evləri istifadəyə verilmiş, Ordubad rayonunun Dəstə kəndində 704, Şərur rayonunun Kərimbəyli kəndində 384, Muğanlı kəndində 192, Alışar kəndində 384, Yeni Havuş və Xətai kəndləri üçün 192, Babək rayonunun Kültəpə kəndində 384, Gülşənabad kəndində 192, Şahbuz rayonunun Türkeş kəndində 96 nömrə tutumlu avtomat telefon stansiyaları quraşdırılmış, Ordubad rayonunda Dəstə Radio-Televiziya Verici Stansiyası üçün binanın tikintisi, Culfa rayonunda rabitə evinin yenidən qurulması davam etdirilmişdir.

Həyata keçirilən mühüm tədbirlərin nəticəsi olaraq bu gün muxtar respublikanın yaşayış ərazilərinin 99,1 faizində genişzolaqlı internet, 99,5 faizində mobil internet xidmətləri göstərilir.

İnformasiya və rabitə sahəsinin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsinə, əhalinin informasiya-kommunikasiya xidmətlərindən daha geniş istifadə etmələrinə yeni imkanlar yaratmaqdadır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

## Qadınlara sərmayə kapitalı verilib

*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə BMT-nin İnkişaf Proqramı tərəfindən icra olunan genişmiqyaslı proqram əsasında Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən reallaşdırılan "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" adlı layihə çərçivəsində tədbir keçirilib.*





Naxçıvan Muxtar Respublikasında həyata keçirilən təlimlərdə öz maraqlı biznes planı ilə fərqlənən qadınlara sərmayə kapitalının verilməsi ilə bağlı tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edib. Bildirilib ki, son illər muxtar respublikada təsisçisi və sahibkarı qadın olan bir sıra sahibkarlıq subyektlərinə ilkin biznesə başlamaları, fəaliyyətlərini genişləndirmək üçün güzəştli şərtlərlə kredit verilib. Bunların məntiqi nəticəsidir ki, hazırda muxtar respublikada 6000-dən artıq qadın sahibkar var. Sahibkar qadınlar ərzaq, qeyri-ərzaq və kənd təsərrüfatı məhsullarının və sənaye materiallarının istehsalında, ictimai iaşə sahələrində fəaliyyət göstərirlər.

Vurğulanıb ki, cari il ərzində icra olunan "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" layihəsində, əsasən, 40 yaşınadək aztəminatlı ailələrdən olan və sağlamlıq imkanları məhdud qadınlar iştirak edib. Layihənin keçirilməsində əsas məqsəd qadınların ailədə və bizneslərində maliyyə idarəetməsi üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi, onların sahibkarlıq fəaliyyətinə dəstək göstərilməsidir.

Diqqətə çatdırılıb ki, layihə çərçivəsində "Gələcəyini planlaşdır" adlı 7 və "Öz biznesinə başla və onu inkişaf etdir" adlı 4 təlim keçirilib. Həmin təlimlərdə 289 qadın iştirak edib. Ümumilikdə, layihə çərçivəsində 63 qadına sərmayə kapitalı verilib, öz biznes ideyaları ilə seçilən 24 qadına müvafiq müqavilələr və aktivlər paylanılıb. Sərmayə kapitalının 80 faizi qadınlara ailə təsərrüfatını genişləndirmək və ya qurmaq üçün, 20 faizi isə xalçaçılıq, toxuculuq, dərzilik, heykəltəraşlıq və digər sahə ilə məşğul olunması və ya inkişafı üçün verilib. Tədbirdə qadınlara, ümumilikdə, 9 iribuynuzlu, 11 xırdabuynuzlu heyvan, 10 hindtoyuğu, 10 arı ailəsi, 1500 kiloqram buğda toxumu, 8 kiloqram ip, 4 kiloqram əriş, 2 kiloqram arğac, 3 hana, 3 tikiş maşını və digər avadanlıqlar verilib.

Ramilə Seyidova qadınlara göstərilən qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

Sonra Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova çıxış edərək qadınlarla Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən imzalanan müqavilələr və görüləcək işlər haqqında ətraflı məlumat verib.

Layihə iştirakçısı Reyhanə Rəhimova göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Tədbirdə sərmayə kapitalı verilən qadınlara müqavilələr təqdim edilib. Sonra sərmayə kapitalının dəyərində alınmış aktivlərə baxış olub.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

Müasirləşən kəndlərimiz

# Həsrətli illərdən sevincli günlərə

*15-20 il bundan əvvəl kənd deyiləndə hər kəsin gözü önündə daşlı-kəsəkli yollar, zamanla uzlaşmayan, toz-torpağa, hisə bürünən nimdaş tikililər, insan əlinin nəvazişindən uzaq, miskin görkəmli boş torpaq sahələri canlanırdı. Deyirlər, zaman hər şeyin çarəsidir. Lakin, fikrimcə, insana sevgi, hörmət olan, torpağın qədir-qiyməti bilinən yerdə yol, istiqamət də düzgün seçildisə, zamanın hökmünün önəmi qalmır, bütün problemlər qısa vaxt çərçivəsində öz həllini tapır. Elə muxtar respublikamızın timsalında son 25 ilin mənzərəsinə tamaşa etməyimiz kifayətdir ki, inkişafın, quruculuğun, tərəqqinin zamanı necə qabaqladığının şahidi olaq. Ötən günlərdə Şahbuz rayonunun qədim kəndlərindən sayılan Türkeşlə tanışlıqdan, gözəlləşən, təravətlənən bu yaşayış məntəqəsinin səmimi, mehriban sakinləri ilə ünsiyyətdən sonra insan iradəsinin, əzminin, xalq, millət təəssübkeşliyinin, torpaq sevgisinin zamanın hökmünə qalib gəlməsinin bir daha şahidi oldum...*



### Yeni arzularla, yeni yollarla...

Payızın qışla görüşə tələsdiyi günlərdən birində mən də Türkeşlə "görüşə" tələsirəm. Yolçu yolda gərək,– deyib səhərin erkən çağından səfərə çıxıram. Haçadağdan xan Arazadək uzanan, ağ qumaşa bənzəyən çən, duman soyuq mehlə birgə gözoxşayan abad yollara su səpir. Geniş, hamar asfaltın üzəri ilə şütüyən maşınları, təmiz, səliqəli səkilərlə hərəkət edən insanları görürəm. Kimi işə, kimi dərsə, kimi də hansısa istirahət guşəsinə tələsir. İstiqamətlər, arzular, istəklər fərqli olsa da, hər kəsi abad, geniş, təmiz yollar qarşılayır, gedəcəyi ünvanadək müşayiət edərək vaxtında və təhlükəsiz şəkildə çatmasına şərait yaradır. Təbiətlə insan övladının əlaqəli şəkildə yaratdığı bənzərsiz mənzərələri seyr etdikcə yolun çox hissəsini necə qət etdiyimin də fərqində olmuram. Çox keçmir ki, "Türkeş" adlı tanıtım lövhəsi qarşılayır məni. Yolayrıcında bayaqdan sehrinə düşdüyüm yolu daha yeni, şümşəd yol əvəzləyir və qısa zamanda mərkəzə yetişməyimə vəsilə olur. Elə bir neçə kənd sakini ilə buradan başlayan yolüstü ilk söhbətim də məhz yeni salınan yollar barədədir. Yaşı 60-ı haqlamış kənd ziyalısı, Çernobıl qəzası zamanı sağlamlığını itirmiş Kamran Məmmədov bu barədə fikirlərini bölüşür:

– Yəqin ki, yaşlı yoldaşlarım da yollarımızın əvvəlki simasını yaxşı xatırlayar, sözlərimi təsdiqləyərlər. Heç yadımdan çıxmaz, o dövrdə uzaq eldə xeyir iş və yaxud bir hüzr yeri olanda yolların bərbadlığı üzündən əksər hallarda gedə bilməz, qohum-əqrəba yanında xəcalətli qalardıq. Hələ ilin yağıntılı dövrlərini, yağışın, qarın qapını kəsdiyi vaxtları demirəm. Ayaqqabını təmizləyib yola çıxmağına peşman olurdun. Evdən tərtəmiz paltar geyinib bir məclisə gedəndə də yollar sənin qəsdinə dayanırdı. Yağışlı havalarda adamı zığ-palçığa batıran yolların qışda üzüqoylu yerə çırpmağı da az olmayıb. Kəndimizə gələn qonaqlar da yolların bu vəziyyətindən əziyyət çəkir, haqlı giley-güzarlarını bildirirdilər. Digər tərəfdən, əlverişli rabitə vasitəsi olmadığı üçün ünsiyyətimiz də ildə bir-iki dəfə bayramda-seyranda baş tutardı. Şükürlər olsun ki, daha həmin acınacaqlı illər arxada qalıb, yolumuz rəvan, güzəranımız könülaçandır. Elə buna görə də gənclərə, övladlarımıza belə xoşbəxt günlərin qədir-qiymətini bilmələrini tövsiyə edirik.



Onu da qeyd edim ki, Türkeşdə ata-babadan adət-ənənələrimizə sadiqlik, böyük sözünə hörmət, ağsaqqal nəsihətinə, ağbirçək öyüdünə ehtiram göstərilib.

Aidiyyəti qurumların əməkdaşları tez-tez mənə baş çəkir, qayğılarımla maraqlanırlar. Bir neçə ay bundan öncə həyatımın daha bir əlamətdar hadisəsini yaşadım, muxtar respublika rəhbəri ilə görüşüm unudulmaz anlar kimi yaddaşıma həkk olundu. Həmin görüşdə mənə avtomobil hədiyyə olundu. İndi həmin nəqliyyat vasitəsinə əyləşib yeni salınan bu yollardan keçdikcə acı keçmişimizdən firavan günlərimizə gələn keşməkeşli yolu xatırlayır, öz-özümə deyirəm ki, həqiqətən də, azadlıq, müstəqillik ən şirin nemətdir, onun yerini heç nə əvəz edə bilməz. Tez-tez televiziya ekranlarından Ali Məclis Sədrinin bölgələrimizə səfərlərini diqqətlə izləyir, çıxışlarını həvəslə dinləyirəm. Onun yaşlı insanlarla səmimi söhbəti, sakinlərin ayrı-ayrılıqda fikirlərini dinləməsi, qayğıları ilə yaxından maraqlanması məni qürurlandırır. "Keçmişi olmayanın gələcəyi də olmaz", – deyiblər. Fikrimcə, rəhbərimizin siyasətinin əsasında məhz keçmişə hörmət, gələcəyə inam hissi, əsl vətənpərvərlik, yurda, xalqa bağlılıq dayanır.

Məktəb binası



Dünən



Bu gün

### Qədimliklə müasirliyin vüsalı...

Türkeşlə tanışlıq zamanı kənd tam orta məktəbində tarix fənnini tədris edən Əməkdar müəllim Fatma Mustafayeva ilə yaşayış məntəqəsinin keçmişinə də qısa ekskursiya edirəm. Fatma müəllimə deyir ki, kənd Sovet hakimiyyəti illərində "Tırkeş", yaxud "Tirkeş" adlandırılıb, 2003-cü ildən isə haqlı olaraq "Türkeş" toponimi ilə əvəz olunub. Adından da göründüyü kimi qədim dövrlərdə burada türk tayfaları yaşayıb. Yaşı XVI yüzilliyə gedib çıxan qəbiristanlıq, girəcəkdə yerləşən, I-II əsrlərə aid keramika məmulatlarının aşkar olunduğu Türkeş nekropolu kəndin tarixinin qədimliyindən soraq verir. Yaşlı insanların dediyinə görə, burada dədə-babadan taxılçılıq sahəsi geniş inkişaf edib, ərazilərdən bol məhsul tədarük olunub, çörək sarıdan qıtlıq halları yaşanmayıb. Kəndin aşağı və yuxarı hissələrində iki kəhriz vardır ki, vaxtilə burada yaşayan insanlar həmin mənbələrdən həm içməli, həm də suvarma suyu kimi yararlanıblar. Cari ildə kənddə yeni "Səfər" kəhrizinin istifadəyə verilməsi də sakinlərin içməli suya olan tələbatının ödənilməsinə səbəb olub.

Kəndi gəzərkən hər yerdə səliqə-sahman, təmizlik görür, qurulanlara, yaradılanlara, yaraşıqlı kənd və xidmət mərkəzlərinə, məktəb binasına, yeni salınan yaşıllıqlara sakinlərin həssas münasibətini duyuram. İnternet, rabitə, poçt, tibb xidmətləri... Bir sözlə, müasir dövr insanına nə lazımdırsa, hamısı var. Yeni istifadəyə verilən feldşer-mama məntəqəsinə daxil oluram. Tibb müəssisəsinin müdiri, 20 ildən artıq insanların sağlamlığı keşiyində dayanan Şövkət Əliyeva məni qarşılayır. Deyir, əvvəllər kənddə səhiyyə infrastrukturu yox səviyyəsində idi. Baxdıqca insanın ürəyini sızladan köhnə binadakı kiçik bir otaqda biz tibb işçilərinin belə, sağlam yaşamağa ümidi, inamı qalmadığı halda, xəstə necə sağalacağına inanardı. Əlimizdən gələni əsirgəməsək də, şəraitsizlik ucbatından dözülməz hallar qaçılmaz olurdu. Digər tərəfdən, yolların bərbadlığı üzündən xəstələri rayon mərkəzindəki xəstəxanaya aparmaqda müəyyən çətinliklər yaranırdı. Lakin insanlarla ünsiyyətimizdə onların bu problemlərin tezliklə həllini tapacağına ümidini, inamını hər zaman hiss edirdik. Gözlədiyimiz kimi də oldu. Türkeşdə də feldşer-mama məntəqəsi yeni binada fəaliyyətə başladı. İndi insanlar daha əvvəlkitək məsafə qət etmədən elə öz kəndlərində lazımi müalicəsini alır, ehtiyac olanda rayon xəstəxanasına müraciət edirlər. Fürsətdən istifadə edib həm kənd sakinləri, həm də tibb işçiləri adından yaradılan bu gözəl şəraitə görə muxtar respublika rəhbərinə dərin minnətdarlığımı bildirirəm.

Kənd mərkəzi



Dünən



Bu gün

Kənddə böyükdən-kiçiyə hər kəsin sevincinə səbəb olan digər bir amil isə tam orta məktəbin hərtərəfli şəraitə malik yeni binada fəaliyyətə başlaması ilə bağlıdır. Binanın həyətində böyük tənəffüs zamanı qovalaqaç oynayan uşaqların şən-şaqraq gülüş səslərindən, müəllimlərin çöhrələrini bürüyən təbəssümdən də onların yerə-göyə sığmayan sevinclərini hiss etmək çətin deyildi. 17 ildir, bu təhsil ocağında çalışan təcrübəli pedaqoq, məktəbin direktoru Bəxtiyar Tarverdiyev söhbət zamanı köhnə binanı, tədris şəraitinin acınacaqlı vəziyyətini yada salır. Deyir, əsl sınaq dövrü olan o günlər getsin, bir daha geri gəlməsin. Tozlu-torpaqlı, yarımqaranlıq siniflər, qırıq, üzəri cızma-qara partalar, sınıq-sökük pəncərələrdən külək vurduqca tüstüləyən, göz çıxaran sobalar köhnə bina barədə hələ qısa xülasədir. Qış aylarında soyuqdan müəllim və şagirdlər siniflərdə qalın geyimdə oturur, həm havanın, həm də şəraitin dözülməz vəziyyəti dərslərdə gerilələmələrə gətirib çıxarırdı. Ara-sıra digər kəndlərdə çalışan müəllim yoldaşlarımla ünsiyyətdə olanda, başqa məktəblərdəki müasir şəraiti görəndə ürəyim qubar edir, öz-özümə "kaş bir gün bizim də belə gözəl məktəbimiz olsun", – deyərdim.

Bu ilin fevral ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Türkeş kəndinə gəlişi, məktəbimizin vəziyyəti ilə yaxından maraqlanması və kollektivlə söhbətindən bir neçə ay sonra baharın gəlişi ilə həm məktəbimizin, həm də pedaqoji kollektivin, şagirdlərin ömrünə, qəlbinə də yeni bir bahar gəldi. Muxtar respublikamızda təhsilə göstərilən diqqət sayəsində Türkeş kənd tam orta məktəbinə də yeni həyat bəxş edildi. Bir vaxtlar şagirdlər elektron lövhəni ancaq televiziya verilişlərində görürdülərsə, indi onlar hər gün bu tədris vasitəsindən istifadə etməklə biliklərini daha da artırır, internetə çıxışı olan kompüterlə dünyanın istənilən nöqtəsi barədə məlumatlar öyrənir, laboratoriyalarda praktik vərdişlərə yiyələnirlər. Məktəbimizdə bütün bu və digər sadalamadığım üstünlükləri yaratmaqda dövlətin bir məqsədi var: savadlı, dünyagörüşlü gənclər formalaşıb Vətənimizin, dövlətimizin xoşbəxt gələcəyini təmin etmək.

### Gedənlər geri dönür

Türkeş kəndinin seyrinə çıxdıqda müasir sosial obyektlər, yol infrastrukturu ilə yanaşı, salınan yeni yaşayış evləri, qurulan təsərrüfatlar da diqqətimi çəkir. Öyrənirəm ki, illər öncə kənddən gedən onlarla ailə son dövrlərdə yenidən öz doğma elinə-obasına qayıdaraq təsərrüfat yaradıb, iş-güc sahibi olub.

Onlardan Elməddin Abbasov deyir ki, 7 il bundan öncə şəraitsizlik üzündən kəndi tərk edəndə, nə vaxtsa bir daha buraya dönəcəyim ağlımdan belə keçməmişdi. Kəndimizdə geniş quruculuq işlərinin görüldüyünü öyrəndim. Və vaxt itirmədən ailəmi də götürüb kəndə qayıtdım. Miskinlik içində itib-batan, səssizliyə qərq olan Türkeş gözlərim önündə, sanki yenidən qol-qanad açıb pərvazlanırdı. Yolboyu görüşdüyüm, söhbət etdiyim insanlar firavan günlərinin yaxınlaşmasını bayram edirdilər. Qısa zamanda hər şey dəyişildi, köhnəlikdən əsər-əlamət belə, qalmadı. Mən də böyük ruh yüksəkliyi ilə təsərrüfat yaratdım, illər öncə insan əli dəyməyən əraziləri əkdim. Təkcə su problemi barədə düşünürdüm ki, ötən günlərdə o da öz həllini tapdı. Təsərrüfatın inkişafı üçün nə lazımdırsa var. 100 baş heyvan bəsləyirəm, qış tədarükü də görmüşəm, istehsal etdiyim məhsulları sərfəli qiymətə sata da bilirəm.

Uşaqlar üçün gözəl, hərtərəfli şəraitə malik məktəb, gedib-gələrkən insanı "xoş qarşılayan, yola salan" yollar, canımız ağrıyanda üz tutacağımız tibb məntəqəsi, hər hansı sənədi almaq üçün müraciət edəcəyimiz kənd mərkəzi ixtiyarımızdadır. Məişət qayğılarımızı ödəyəcək xidmət mərkəzi də inşa olunub. Daha bundan artıq nə olsun?

Digər bir türkeşli – Sərxan Abdullayev deyir ki, 15 ildir, Naxçıvan şəhərinə köçsəm də, ara-sıra dədə-baba ocağına da baş çəkməyi özümə borc bilirdim. Hər gəlişimdə kəndimizin simasının yeniləşəcəyinə böyük ümid bəsləyirdim. Təsərrüfatçılar üçün yaradılan şərait nəticəsində hər yeni mövsümdə əkilən ərazilərin miqyasının genişləndiyini də görürdüm. Və bu amili nəzərə alıb ötən il kəndə qayıtmaq qərarına gəldim. Əkdiyim ərazi hesabına, yem tədarükü yaxşı olduğu üçün heyvan alıb bəsləməyə başladım, artıq onların sayını 300-ə çatdırmışam. Cari ildə kəndimizdə gedən böyük quruculuq və abadlıq işləri hər bir sakin kimi, məni də ürəkdən sevindirdi. Artıq su problemi tamamilə öz həllini tapdığı üçün bu il daha geniş ərazidə əkin işləri aparmışam. Bütün yaradılan imkanlara görə kənd sakinləri adından dövlətimizə minnətdarlıq edirəm.

### Son söz

Qədim yaşayış məntəqələrindən olan Türkeşin bugünkü mənzərəsi ilə tanışlıqdan, bu yurdun insanları ilə ünsiyyətdən gəldiyim qənaət:

– Bildiyimiz kimi, həyatda ən önəmli olan cansağlığıdır. Məhz dövlətimiz də bunu düşünərək bütün ucqar yaşayış məntəqələri kimi, Türkeşdə də müasirtipli feldşer-mama məntəqəsini istifadəyə verib, bütün kommunal, məişət problemləri öz həllini tapıb. Sakinlərin də dediyi kimi, bir vaxtlar bunların xəyalını qurmaq belə, mümkünsüz görünürdü. Bütün bunlar insanların firavan həyatı, rifahı üçündür. Xalqın, millətin gələcəyinin bilavasitə asılı olduğu təhsil sahəsində böyük iş görülüb. Məktəblilərə gözəl şəraitə malik təhsil ocağı ucaldılıb, onların gələcəyin savadlı kadrı kimi yetişmələri üçün ən yeni tədris avadanlıqları quraşdırılıb. Yetər ki, gənclik hərtərəfli yetişib bu dövlətə, bu xalqa layiqli töhfə verə bilsin. İnsanların əsas məşğuliyyət sahələrindən olan təsərrüfatçılıq ənənələrinin davamlılığı təmin olunub. Kənd sakinlərinin də qeyd etdiyi kimi, bir vaxtlar əlçatmaz görünən su problemi həllini tapıb, istismara verilən yeni qapalı suvarma şəbəkəsi 300 hektardan artıq ərazinin suvarılmasına imkan verəcək. Bu da, son nəticədə, əhalinin ərzaqla təminatına və heyvandarlığın, əkinçiliyin inkişafına güclü təkan göstərəcək...

Həsrətli illərdən sevincli günlərə qədəm qoyan türkeşlilərə isə yaradılanların mahiyyətinə vararaq onlardan səmərəli istifadə etmək, həm özlərinin yaşayışını yaxşılaşdırmaq, həm də dövlətimizin gələcəyi, inkişafı üçün töhfələr vermək qalır.

Nail ƏSGƏROV

# Erkən diaqnoz vaxtsız ölümdən xilas edir
## Yetər ki, sağlamlığınıza biganə qalmayasınız



***Ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafı istiqamətində kompleks tədbirlər görülür, səhiyyə infrastrukturunun yenilənməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin yaradılması əhalinin sağlamlığının qorunmasına xidmət edir. Bu gün digər xəstəliklərlə yanaşı, tibbin ən ağır və məsuliyyətli sahələrindən biri olan onkologiya problemləri də daim dövlətimizin diqqət mərkəzindədir.***

2009-cu ilin dekabr ayında istifadəyə verilmiş 3 mərtəbəli, 30 çarpayılıq Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzində süd vəzi xərçənginin diaqnostikası üçün ultrasəs, rəqəmsal mammoqrafiya aparatları ilə müayinə otaqları onkoloji xəstəliklərin diaqnostikasında əsas rol oynayan və onkomarkerlər təyin olunan Histoloji və sitoloji laboratoriya fəaliyyət göstərir. Mərkəzdə, həmçinin sümük, oynaq, yumşaq toxumaların, ağciyərin və digər orqanların xəstəliklərinin diaqnostikası üçün rəqəmsal rentgen aparatı quraşdırılıb, şüa müalicəsinin ROKS – AM aparatı vasitəsilə aparılması təmin edilib.





Onkoloji xəstəliklərin diaqnostikası və müalicəsinin yüksək səviyyədə təşkil olunması üçün tədbirlər ardıcıl şəkildə davam etdirilib, Ali Məclis Sədrinin tapşırığı ilə müasir standartlara tam cavab verən qısaməsafəli Rentgen terapiya aparatı alınaraq istifadəyə verilib. Aparat 5 santimetr dərinliyə nüfuzetmə qabiliyyətinə malikdir və bu məsafədə olan bütün xərçəng hüceyrələrini məhv edir. Bu avadanlıqdan, xüsusən qadınlarda süd vəzi xərçənginin, limfatik vəzlərin metastazı zamanı, dəri xərçənginin və bir sıra xəstəliklərin müalicəsində geniş istifadə olunur. Avadanlıq İngiltərə istehsalıdır.

Qısaməsafəli Rentgen terapiya kabinəsinin fəaliyyətə başlaması və burada ixtisaslı həkimin də olması xəstələrin Bakı şəhəri və ya qonşu ölkələrə üz tutmaları ilə bağlı zərurəti ortadan qaldırıb. Artıq onlar bu yeni avadanlıq vasitəsilə mərkəzdə yüksək səviyyədə müalicə ala bilirlər.

Mərkəzdə şüa terapiyası radioloji kabinədə həkim-radioloq Əkbər Mehdiyev tərəfindən həyata keçirilir. O, radioloji müalicə işinə görə bir neçə dəfə Azərbaycan Milli Onkologiya Mərkəzində, krioterapiya üzrə Moskva şəhərində kurs keçib. Həkim-radioloq dəri və gözlə görünən selikli qişalardakı xoşxassəli şişlərin bütün növlərinin krioterapiya tədbirlərini ROKS-AM qammaterapiya aparatı vasitəsilə həyata keçirir. Bu, orqanizmin istənilən nahiyəsindəki bədxassəli şişlərin müalicəsinə etibarlı təminat verir.

Kimyəvi müalicə tədbirləri üçün dərmanlar Azərbaycan Milli Onkologiya Mərkəzi tərəfindən ayrılır və xəstələr üçün pulsuzdur. Kimyəvi, eləcə də şüa müalicə tədbirləri protokollar üzrə aparılır.

Dəridə, dil və dodaqda səthi 2 santimetrə qədər dərinlikdə olan xərçənglərin müalicəsi rentgen terapiya kabinəsində həyata keçirilir. Həkim Roza Rzayeva deyir ki, xroniki, səbəbi açıqlanmayan göstəricilər xərçəngin əlamətləri ola bilər. Əgər orqanizmdə yolunda getməyən bir şey varsa və uzun müddət davam edirsə, bunun normal bir vəziyyət olmadığını hər kəs bilməlidir. Hər bir xəstəlik vaxtında müalicə olunarsa, heç bir qorxusu yoxdur. İnsanlar bunu unutmamalı, sağlamlıqlarının qeydinə qalmalıdırlar.

Mərkəzdə fəaliyyət göstərən Kliniki laboratoriyada müasir analizator aparatı vasitəsilə qan sayım və qanın biokimyəvi müayinəsi, USM kabinəsində isə həkim-funksionalist Hüsniyyə Camalova tərəfindən ultrasəslə tibbi müayinələr aparılır.

Mammoqrafiya kabinəsi Yaponiya istehsalı MXR – 300 digital mammoqraf aparatı ilə təchiz olunub. Bu aparatla son illərdə Naxçıvan şəhəri və rayonlar üzrə təhsil, mədəniyyət və səhiyyə sistemində çalışan qadınlarda süd vəzisinin profilaktik müayinəsi həyata keçirilib. Müayinələr zamanı patologiyalar aşkar edilən qadınlar Onkoloji Mərkəzə dəvət olunub və mammoqrafiya müayinəsindən keçirilərək diaqnozu dəqiqləşdirilib, müvafiq müalicələr təyin edilib.

Mammoqrafiya həkimi Roza Rzayeva Naxçıvan Diaqnostika Müalicə Mərkəzində və Bakı Şəhər Milli Onkologiya Mərkəzində mammoqrafiya kurslarında iştirak edib. Söhbət zamanı o bildirdi ki, Ümumdünya Səhiyyə Təşkilatının məsləhətinə görə bütün qadınlar, xüsusən 40 yaşı tamam olan qadınlar ildə 1 dəfə mammoqrafik müayinədən keçməlidir. Bu həm də irsiyyətində xərçəng xəstəliyi olan 30 yaşlı qadınlara da aiddir. Müayinə yolu ilə erkən xərçəngin ilk əlaməti olan muerdeolsinotlar aşkar edilir. Qadınlara məsləhətim odur ki, bu xəstəliyi aşkar etmək üçün müayinədən qorxmasınlar. Erkən diaqnoz erkən ölümdən xilas edir.

Roza Rzayeva, eyni zamanda rentgenoterapiya üzrə də fəaliyyət göstərir. İngiltərə istehsalı olan müasir Xstrahl-300 aparatı vasitəsilə bazal və yastı hüceyrəli xərçənglərin müalicəsini aparır.

Rentgen kabinəsinin həkim-rentgenoloqu Heydər Sadiqov 1990-cı ildən rentgenoloq işləyir, ixtisası ilə bağlı kurslarda olub. O, mərkəzdəki Ekonet rəqəmsal rentgen aparatı haqqında məlumat verərək bildirdi ki, bu aparat xəstələrə dəqiq diaqnoz qoymaqda böyük əhəmiyyətə malikdir. Hazırda mərkəzdə bütün rentgenoloji müayinələri aparmaq olur.

Gənc həkim Əminə Seyidzadə Onkoloji Mərkəzin Ginekoloji kabinəsində ötən ildən onko-ginekoloq işləyir. Türkiyənin Ərzurum, Ankara şəhərlərində, Bakı şəhərində Milli Onkologiya Mərkəzində təcrübə keçib, sertifikat alıb. Hazırda müasir müayinə və müalicə metodlarının tətbiqi ilə məşğuldur.

O, 21 yaşdan yuxarı qadınlardan ildə bir dəfə profilaktik məqsədlə PAP smear testi götürülməsinin zəruriliyini qeyd edir. Bildirir ki, bu testin nəticələrinə əsasən müalicə taktikası seçilir.

Həkim Hüseyn Qasımovun rəhbərlik etdiyi Laboratoriya şöbəsi müasir tələblərə cavab verən cihaz və avadanlıqlarla təchiz olunub. Şöbə patomorfoloji və hematoloji bölmələrdən ibarətdir. Patomorfoloji bölmədə patohistoloji və sitomorfoloji müayinələr aparılır. Müayinə üçün patoloji materiallar muxtar respublikanın rayonlarındakı və Naxçıvan şəhərindəki xəstəxanalardan göndərilir. Hematoloji bölmədə tam avtomatlaşdırılmış 18 parametrli analizatorda qan ümumi müayinədən keçirilir. Biokimyəvi analizatorda isə qanın biokimyəvi müayinəsi icra olunur. Bura müxtəlif orqan testləri aiddir. İmmunofermen analizatorda onkoloji xəstəliklərə şübhəli insanları seçmək və onları daha ətraflı müayinələrə cəlb etməklə xəstəlik müəyyənləşdirilir. Eyni zamanda bu müayinələrin köməyi ilə onkoloji xəstələr müşahidə altında saxlanılır. Belə müasir tibbi şərait xəstələrin başqa yerlərə getmədən mərkəzdə hərtərəfli müayinə olunmalarına imkan verir.





Onkoloji Mərkəzin baş həkimi, muxtar respublikanın baş onkoloqu Viladi Cabbarov məlumat verir ki, təkcə cari ilin ötən 9 ayı ərzində Poliklinika şöbəsinə 3 min 43 gəliş olub, 416 nəfərdə bədxassəli şiş qeydə alınıb, onların 90,6 faizində xərçəng diaqnozu morfoloji təsdiqini tapıb. Təhlillər göstərir ki, lokalizasiyasına görə ilkin aşkar olunmanı ən çox süd vəzi, ağciyər, mədə, uşaqlıq xərçəngi təşkil edir.

Baş həkim onu da bildirdi ki, indi əhalinin daha çox hissəsi əvvəlki illərdən fərqli olaraq profilaktik tibbi müayinələrə cəlb olunur, xəstələr müəyyən edilərək dispanser qeydiyyatına alınır.

Viladi Cabbarov diqqətimizə onu da çatdırdı ki, bizdə əsas problemlərdən biri insanların onkoloji müayinələrə meyil göstərməməsidir. Bu gün onkologiyanın adı gələndə hər kəs ehtiyatlanır. Amma, əslində, elə deyil. İnsan tək onkoloji xəstəliklərdən yox, digər xəstəliklərdən də həyatını itirə bilər. Bu gün artıq bu xəstəliyin müalicəsi var. Xəstəliyin birinci və ikinci mərhələlərində müraciət edilsə, xərçəngin yerləşdiyi nahiyədən asılı olmayaraq, onun müalicəsi mümkündür. Hazırda dünyada və ölkəmizdə bu sahə ilə bağlı böyük irəliləyişlər əldə olunub. Bunun ifadəsidir ki, davamlı müalicə ilə 22-24 ildir, yaşayan xəstələrimiz var. Onlar öz xəstəliklərinə laqeyd deyillər. Deyilənləri vaxtında yerinə yetirirlər.

Dünyada 40 yaşından sonra qadınlar süd vəzilərini müayinə etdirirlər. Bizdə isə qadınlar yoxlanmaq istəmirlər. Amma bilmək lazımdır ki, süd vəzində gecikmiş xərçəng xəstəliyinin aşkar olunması çox təhlükəlidir.

Problem ondadır ki, bu və digər xəstələr onkoloqa qədər çox yerə müraciət edirlər. Amma elə xəstəliklər vardır ki, onların müayinə və müalicəsi onkoloji prinsiplərə əsasən aparılmalıdır. "Onkoloji xəstələrə yardım haqqında" Qanunda xəstələrin onkoloji tibb müəssisələrində müayinə və müalicə olunması qeyd edilib.

Baş həkimin sözlərinə görə, çalışmaq lazımdır ki, insanlarda xərçəng qorxusu aradan götürülsün. O, "Niyə çox vaxt bu xəstəliklə bağlı xəstələrin bəziləri xaricə üz tutur?" – sualını cavablandırarkən dedi ki, doğrudur, xaricə gedənlər olur. Amma hara getsələr də, yenidən bizim mərkəzə gəlirlər. Son vaxtlar onkoloji xəstələrin xaricdəki xəstəxanalara müraciət etmələri xeyli azalıb. Sizə bir misal deyim:

– Bu il mart ayında İran İslam Respublikasının Təbriz şəhərindən Naxçıvana gələn bir qrup həkim bizim mərkəzlə tanışlıq zamanı bildirdi ki, burada olan müasir tibbi avadanlıq və cihazlardan onlarda hələ də yoxdur.

Oktyabrın 31-də Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"Müasir səhiyyə müəssisələrinin qurulması və həkim hazırlığı işin bir tərəfidirsə, digər əsas məsələ isə yaradılan şəraitdən səmərəli istifadə etmək və səhiyyə xidmətini günün tələbləri səviyyəsində qurmaqdır. Nəzərə almaq lazımdır ki, tibbi avadanlıqlardan düzgün istifadə diaqnoz və müayinənin əsasını təşkil edir. Ona görə də həkim və tibb işçiləri alınan avadanlıqları öyrənməli, onları düzgün tətbiq etməli, əhaliyə nümunəvi səhiyyə xidməti göstərilməlidir".***

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzi tərəfindən hazırda xəstəliklərin vaxtında aşkara çıxarılması üçün lazımi tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Təsadüfi deyil ki, belə xəstəliklərin profilaktikası, vaxtında aşkara çıxarılması və xəstələrin müalicəyə cəlb edilməsi üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində kollegiya iclası da keçirilib. Onkoloji Mərkəz tərəfindən əhaliyə göstərilən ambulator və stasionar onkoloji tibbi xidmətin səviyyəsinin yüksəldilməsi barədə tədbirlər planının hazırlanması, xəstəliklərin erkən aşkarlanması tədbirlərinin artırılması, əhali arasında səhiyyə maarifi işinin gücləndirilməsi və digər məsələlər barədə qərar qəbul edilib, konkret tapşırıqlar verilib. Hazırda bu istiqamətdə tədbirlər davam etdirilir. Bu isə gələcəkdə muxtar respublikada tibbin bu istiqaməti üzrə yeni nailiyyətlərin əldə edilməsinə stimul olacaq.

**Hüseyn ƏSGƏROV**

# Maarifləndirici tədbir keçirilib



*Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı dünən əhali arasında maarifləndirici tədbir keçirilib.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 10 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə əlaqədar keçirilən tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açıb. Müvafiq sərəncama əsasən bu il dekabr ayından etibarən rayonda da tətbiq edilən icbari tibbi sığortanın əhəmiyyəti barədə danışıb, görülən işləri diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov çıxışında bildirib ki, Ordubad rayonunda icbari tibbi sığortanın tətbiqi məqsədilə görülən işlər vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin daha da artırılmasını, səhiyyə sisteminin dayanıqlı inkişafını, əhalinin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsini və maddi rifah halının yaxşılaşmasını təmin edəcəkdir. Belə ki, Ordubad Rayon Mərkəzi Xəstəxanasında yenidənqurma və təmir-bərpa işləri həyata keçirilib, müvafiq palatalarda mərkəzi oksigen sistemi qurulub, fiber-optik xətlər vasitəsilə internet şəbəkəsi yaradılıb, 46 kompüter, 5 printer, mərkəzi server qurulub və Medisoft "Səhiyyə informasiya idarəetmə sistemi" yaradılıb.

Sonra agentlik əməkdaşlarının müxtəlif mövzularda çıxışları dinlənilib. Həmin mövzularla bağlı slaydlar nümayiş etdirilib və tədbir iştirakçılarının sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi***

*Heydər Əliyev Muzeyində “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti” kitabının müzakirəsi keçirilib.*

## Kitab müzakirəsi təşkil edilib

“Naxçıvan” Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Mehman Şabanov tədbirdə çıxış edərək bildirib ki, xalqın və millətin inkişafı gənc nəslin intellektual səviyyəsindən, bilik və bacarığından, Vətənə layiq əsl vətənpərvər kimi yetişməsindən asılıdır. Bu gün kitabların oxunmasının zəruriliyinin dövlət səviyyəsində təbliği və təşviq olunması yüksək əhəmiyyətə malikdir. Buna görə də gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan Sərəncamla “Oxunması zəruri olan kitabların Siyahısı” təsdiq edilib. Siyahıya daxil olan bir sıra kitabın müzakirəsi təşkil edilir. Növbəti olaraq “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti” kitabının müzakirəsi keçirilir. Qeyd olunub ki, tarixin müxtəlif dövrlərində bəzən elə şəxsiyyətlər yetişir ki, onlar zamanın qlobal proseslərinə təsir göstərir, təmsil etdikləri millətin taleyində mühüm rol oynayır, qüdrətli dövlət yaratmaqla hər sahədə cəmiyyətin inkişafına təkan verirlər. Belə dahi şəxsiyyətlərdən biri də Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevdir. “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti” kitabı bütün azərbaycanlılar üçün əhəmiyyət kəsb edən tarixi, siyasi-ideoloji məqamları əhatə edir. Bu mənada, həmin müraciətdəki mühüm məqamlarla tanış olmaq, öyrənmək hər birimiz üçün vacibdir.

Sonra gənclər kitab haqqında öz fikirlərini bildirib, muzeydə ümummilli liderin həyatı və siyasi fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

Tədbir Gənclər və İdman Nazirliyinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

## Naxçıvan bölməsinə hədiyyə edilən kitabların təqdimatı olub



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fonduna hədiyyə olunan 12 əlyazma və çap kitabının təqdimatı keçirilib.*

Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq muxtar respublika ərazisindən toplanılan əlyazma və qədim çap kitablarının tariximizin və mədəniyyətimizin öyrənilməsi baxımından böyük əhəmiyyət daşıdığını söyləyib və bu istiqamətdə həyata keçirilən tədbirlərdən danışıb. Bildirilib ki, müxtəlif tarixi qaynaqları əhatə edən nadir sənət əsərləri bir çox sahələrin öyrənilməsində yeni mənbə rolunu oynayır.

İsmayıl Hacıyev cari ildə Mədəniyyət Nazirliyi tərəfindən, ümumilikdə, 55 adda əlyazma və kitabın bölməyə hədiyyə edildiyini diqqətə çatdırıb.

Sonra Mədəniyyət Nazirliyinin aparat rəhbəri Piri Nağıyev muxtar respublikada mədəniyyətə, xalq yaradıcılığının inkişafına dövlət tərəfindən daim yüksək qayğı göstərildiyini deyib, muzeylərin yaradılması ilə bağlı imzalanan sərəncamların əhəmiyyətindən danışıb. Piri Nağıyev hədiyyə olunan kitablarla bağlı məlumat verərək bildirib ki, nəşrlər Əməkdar mədəniyyət işçisi Akif Hacıyev tərəfindən nazirliyə təqdim olunub. O, gələcəkdə də bölmə ilə nazirlik arasında bu cür tədbirlərin davam etdiriləcəyini bildirib.

Əlyazmalar Fondunun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov rəhbərlik etdiyi müəssisənin apardığı tədqiqatlarla bağlı ümumi məlumat verərək tədbir iştirakçılarını yeni əlyazma və çap kitabları ilə yaxından tanış edib. Bildirib ki, hədiyyə olunan nəşrlər arasında ərəb və fars dillərində dini mövzularla bağlı “Risalə” əlyazması, “Qurani-Kərim”in dörd nüsxəsi, Məhəmmədbağır ibn-Məhəmmədtəqinin “Məclis”, Şeyx Molla Əbülqasim Gənci Axundzadənin “Gülzari-həqiqət”, Bəhaəddin Məhəmməd Amilinin “Cameyi-Abbasi”, eləcə də müxtəlif tarixi əsərlər, dini hekayələr toplusu və digər kitablar var.

Sonda Akif Hacıyev çıxış edərək tarixi əhəmiyyət kəsb edən maddi mədəniyyət, nadir sənət nümunələrinin toplanılması, öyrənilməsi və təbliğinin zəruriliyini qeyd edib.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

## “Telekommunikasiya sahəsinə dair təlim” mövzusunda seminar-treninq



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Sərəncamının icrası ilə bağlı “Naxçıvan” Universitetində növbəti seminar-treninq keçirilib.*

“Huawei” şirkəti tərəfindən “Naxçıvan” Universitetində yaradılan İKT mərkəzində “Telekommunikasiya sahəsinə dair təlim” mövzusunda keçirilən seminar-treninqdə Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mütəxəssisləri, Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərinin bir qrup müəllimi və hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələr iştirak ediblər.

“Huawei-Azərbaycan” Məhdud Məsuliyyətli Cəmiyyətinin müşahidə və üztanıma kameraları üzrə mütəxəssisi Əliəkbər Mirzəquliyev “Telekommunikasiya sistemləri və yeni nəsil Core avadanlıqları” haqqında iştirakçılara geniş mühazirə oxuyub.

Sonda tələbələrin sualları cavablandırılıb.

**Seyfur HACIMURADOV**

## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi 2019-cu il üçün fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya və elmlər doktoru hazırlığı üzrə dissertantura və doktoranturaya qəbul elan edir

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru hazırlığı üzrə | | | | | | | | Elmlər doktoru hazırlığı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən: | | | | cəmi | o cümlədən: | | cəmi | o cümlədən: | | | | cəmi | o cümlədən: | |
| | | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| **Təbii Ehtiyatlar İnstitutu üzrə** | | | | | | | | | | | | | | | | | |
| 2220.01 | Yarımkeçiricilər fizikası | | | | | | 1 | 1 | | | | | | | | | |
| 2307.01 | Fiziki kimya | | | | | | | | | 1 | | 1 | | | | | |
| 3339.01 | İnformasiyanın mühafizəsi üsulları və sistemləri, informasiya təhlükəsizliyi | | | | | | 1 | 1 | | | | | | | | | |
| **Batabat Astrofizika Rəsədxanası üzrə** | | | | | | | | | | | | | | | | | |
| 2108.01 | Astrofizika və ulduz astronomiyası | | | | | | 1 | 1 | | | | | | | | | |
| **Bioresurslar İnstitutu üzrə** | | | | | | | | | | | | | | | | | |
| 2417.01 | Botanika | | | | | | | | | 1 | 1 | | | | | | |
| 2430.01 | Mikologiya | | | | | | | | | | | | | | 1 | 1 | |
| **Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu üzrə** | | | | | | | | | | | | | | | | | |
| 5503.02 | Vətən tarixi | | | | | | | | | | | | | | 1 | | 1 |
| 5505.02 | Arxeologiya | | | | | | 2 | 1 | 1 | | | | | | | | |
| **İncəsənət, Dil və Ədəbiyyat İnstitutu üzrə** | | | | | | | | | | | | | | | | | |
| 5706.01 | Azərbaycan dili | | | | | | 1 | 1 | | | | | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | | | | | | 3 | 3 | | | | | | | | | |
| 5718.01 | Dünya ədəbiyyatı (Amerika üzrə) | | | | | | 1 | 1 | | | | | | | | | |
| 6218.01 | Dekorativ-tətbiqi sənət | | | | | | 1 | 1 | | | | | | | | | |
| 6401.01 | Memarlıq nəzəriyyəsi və tarixi, abidələrin bərpası və rekonstruksiyası | | | | | | 1 | 1 | | | | | | | | | |
| **Cəmi:** | | | | | | | 12 | 11 | 1 | 2 | 1 | 1 | | | 2 | 1 | 1 |

**Qəbul üçün aşağıdakı sənədlər təqdim olunmalıdır**

- müəssisə rəhbərinin adına ərizə;
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- iş yerindən xasiyyətnamə;
- çap olunmuş elmi işlərin siyahısı və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- fəlsəfə doktoru (elmlər namizədi) elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (elmlər doktoru proqramı üzrə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

Sənədlər 30 dekabr 2019-cu il tarixə qədər saat 09[00]-dan 17[00]-a kimi AMEA Naxçıvan Bölməsinin əsas binasında, Təhsil və kadrlar şöbəsində qəbul edilir.

**Ünvan: Heydər Əliyev prospekti 76**
**Əlaqə telefonu: 544-65-97**
**e-mail: doktorant.nb@mail.ru**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 858